







# Bakının hüzn və dəstəyi davam edir

**Türkiyədə baş vermiş dəhşətli zəlzələ nəticəsində həyatını itirənlərin xatirəsi Bakıda Türkiyə səfirliyində də dərin hüzn və qardaşlıq ehtiramı ilə yad edilir. Səfirliyi önündəki Türkiyə bayrağı da yarıya qədər endirilib.**

Ziyarətçilər ki gündür ki, zəlzələdə həlak olan çoxsaylı türk bacı-qardaşlarımızın xatirəsini anmaq məqsədilə səfirliyinin qarşısında təşkil edilmiş guşənin önünə gül dəstələri düzürlər. Gələnlər arasında qocalar da var, gənclər də, sıravi vətəndaşlar da var, məsul vəzifə sahibləri də. Onları birləşdirən isə qardaş ölkədə baş vermiş faciəyə görə dərin kədər hissi keçirmələr, hər cür yardıma hazır olmalarıdır. Bu hadisənin çox böyük təbii fəlakət olduğunu dilə gətirən insanlar Türkiyənin bu çətin günündə birlik nümayiş etdirirlər. Onlar qardaş ölkəyə hər cür maddi-mənəvi dəstəklərini sonadək davam etdirəcəklərini qeyd edirlər.

Biz də redaksiyamız adından zəlzələ qurbanlarına Allahdan rəhmət dilədik, bu faciədən zərər çəkən insanlara şəfa arzuladıq.

Azərbaycan paytaxtı 3 gündür ki, qardaş ölkənin fəlakət ağrısını bölüşür, hüzn və başsağlıqlarını ifadə edir, zəlzələ bölgəsinə yardımlarını davam etdirir.

***

Türkiyədə baş vermiş güclü zəlzələdən zərər çəkənlərə kömək məqsədilə Azərbaycanda humanitar yardım kampaniyasına başlanılıb. Yardımlar Bakı şəhəri, Babək prospekti 27, “Doğtaş” mebel mağazasında qəbul edilir. Əlaqələndiricilərin sözlərinə görə, zərərçəkənlər üçün əsasən qış paltarları, o cümlədən gödəkçə, qalın şalvar, əlcək, corab kimi zəruri geyimlər gətirilir. Bunlarla bərabər, çətin vəziyyətdə olan insanlara çadır, yataq dəstləri, yorğan-döşək, əl fənəri, generator, təmizlik alətləri də lazımdır.

Ərazidə olduğumuz müddət ərzində yardımların ardı-arası kəsilmirdi. Vəziyyət o yerə çatmışdı ki, azərbaycanlılar tərəfindən göndərilən bağlamaları daşımaq üçün əlavə qüvvələr köməyə gəlmişdi.

Yardımların toplanmasında iştirak edən türkiyəli iş adamları və yardım gətirən azərbaycanlılarla həmsöhbət olduq.

Türkiyəli iş adamı Ömər Kəskin zəlzələdən əziyyət çəkən insanların, ilk növbədə, diqqət və qayğıya, isti münasibətə ehtiyacları olduğunu dilə gətirdi.

– Çox insan evini itirdiyi üçün geyimsiz qalıb. Buraya gətirilən paltarlar işlənmiş də ola bilər. Bizim işimiz burada yığılan yardımları toplayıb Türkiyəyə göndərməkdir. Yardım etmək üçün limit yoxdur, kim nə istəsə, gətirə bilər. Yardımların sayı-hesabı yoxdur. Azərbaycanlı qardaşlarımızın canıyananlığına görə hər birinə minnətdarıq.

Türkiyə Qızıl Aypara Cəmiyyətinin Azərbaycan üzrə nümayəndələri dedilər ki, burada toplanan yardımları ən qısa zamanda Türkiyəyə göndərəcəyik.

– Azərbaycanlı qardaşlarımıza ürəkdən “çox sağ olun” – deyirik. Özəlliklə isti paltarlar, adyallar, körpə uşaqlar üçün ləvazimatlar gətirirlər. Kimsə pul yardımı etmək istəyirsə, AFAD və Türkiyə Qızıl Aypara Cəmiyyətinin hesablarına köçürə bilər. Yardımlar Türkiyədəki vətəndaşlarımızın ehtiyacları tam qarşılanadək davam edəcək. Ən çox ilk on günün daha çox önəmi var. İlk yardım maşınının qardaş ölkəyə fevralın 8-də yola salınacağı gözlənilir. Aksiyanı qısa zaman ərzində başlatmağımıza baxmayaraq, yardımların ardı-arası kəsilmir. Doğrusu, bu qədər yardımın gələcəyini gözləmirdik.

Könüllü Elçin Ləmbəranski qeyd etdi ki, hamımız bir olub zəlzələdə əziyyət çəkən türkiyəli qardaşlarımıza əlimizdən gələn qədər, ondan da artıq kömək edək.

– Bura isti geyimlər, konservləşdirilimiş və quru yeməklər və s. daxildir. Türkiyə hökuməti yardımla bağlı fond yaradıb, pul ianə etmək istəyənlər köçürə bilərlər. Türkiyənin dərdi dərdimiz, acısı acımızdır.

Vüqar Hacıyev bildirdi ki, zəlzələ bölgəsinə göndərmək üçün geyim, çadır, yataq, qızdırıcı avadanlıqlar və azyaşlı uşaqlar üçün lazım olan əşyalar gətiriblər.





– Baş verən zəlzələ nəticəsində dünyasını dəyişənlərə Allahdan rəhmət, yaralılara şəfa diləyirik. Qardaş ölkə ilə həmrəyik və onun yanındayıq. Türkiyəli qardaşlarımıza müxtəlif əlbisələr, geyim əşyaları gətirmişik.

Nərmin Allahverənova vurğuladı ki, türk xalqının bu dərdinə şərikik və əlimizdən nə gəlirsə, edəcəyik, yardımlarımızın ardı-arası kəsilməyəcək.

– Hər zaman Türkiyənin yanındayıq, bundan sonra da olacağıq. Əsasən qış geyimləri gətirmişəm. Bu, bizim ən birinci insanlıq borcumuzudur. İnstaqramda qarşıma çıxdı ki, belə yardım kampaniyası keçirilir. Görər-görməz evdə əlimə nə keçdisə, gətirdim buraya.

Leyla İsmayılova Türkiyədə baş verən zəlzələyə görə məyus olduğunu bildirdi:

– Azərbaycanlılar hər zaman Türkiyənin yanındadırlar. Ən xırda yardım belə hansısa yaxşı məqsədə xidmət edir, deyə düşünürəm. Ümid edirəm ki, bu fəlakətin yaratdığı acı nəticələr ən az itki ilə qısa bir zamanda aradan qaldırılar. Uşaq və qadın geyimləri, gigiyenik vasitələr, yataq dəsti gətirmişəm. Yenə də yardımlar edəcəyəm.

Cavid İsmayılov da digərləri kimi yorğan-döşək, geyimlər gətirmişdi.

Təbii ki, yardımlar yalnız kampaniya xarakteri daşımayacaq, davamlı olacaq. Dünya bir daha görür ki, iki dövlət - bir millət olaraq daim bir-birimizin yanındayıq.

Qeyd edək ki, fevralın 6-da Türkiyədə 7,7 maqnitudalı zəlzələ olub. Nəticədə 5 min 500 nəfərdən çox insan ölüb, 30 min nəfərdən çoxu isə yaralanıb. 5 min 775 bina dağılıb.

***F.SALMANOVA,***
***R.ABİŞEV,***
***E.AĞALAR (foto),***
***“Xalq qəzeti”***